

Alpay Azər

# Dilemma

*hekayə*




**Günün birinci yarısı tələbələrə mühazirələr deyir, ikinci yarısı evdə yeddi-səkkiz şagird hazırlaşdırır, - yəni, çənə-boğaz məsələsi, yorğunluq. Axşam saat səkkizdən sonra sabahkı mühazirələrə hazırlaşır, gecəyə qədər kitab-jurnal oxuyur, indiyə qədər əlli iki elmi məqalə, iki monoqrafiya, üç dərslik yazıb, - gözlüyünün artan mənfiləri. Üstəgəl ilboyu hazırlaşdırdığı şagirdlərin verəcəyi sınaq, əsas da test imtahanlarına görə keçirdiyi stresslər, yüksək qan təzyiqi. Sonda öyrəşdiyi otuz illik əziyyət.**

BDU-nun filologiyasını bitirən kimi tanışsız, rüşvətsiz müəllim kimi işə götürmüşdülər. Sonra uğur uğurun dalınca (yenə öz gücünə), - baş müəllim, elmlər namizədi, dosent, elmlər doktoru və bu gün-sabah Nizam professor olacaq. Namuslu, dözümlü həyat yoldaşı və tərbiyəli, ali təhsilli üç qız. Otuz iliydi aylıq maaş, ən əsası, repetitorluqla ailəsini dolandırırdı. Sovetin vaxtı qəbul imtahanlarında nə o biri müəllimlər kimi özünü komissiyaya saldırmışdı, - onda bir qəbuldan alınan rüşvətə maşın, hətta ev alanlar olurdu, - nə də onda və indi semestr imtahanlarında bir tələbədən yüz manat, ya qalstuk götürmüşdü. Halal pulla böyük qızının toyunu edib ərə vermişdi, hələ ki, elçiləri gəlməyən qalan ikisinin cehizi üçün əlinə pul gəldikcə, arvadına verirdi ki, yığsın.

Qaldığı üçotaqlı həyət evində kitablar, jurnallar əl-ayağa dolaşırdı. Karton qutulardakı jurnalların nazik vərəqləri illər ötdükcə nəm çəkdiyindən bəzi səhifələrdə hərflər oxunmaz olurdu. Eləmirdi tənbəllik, qələmiylə silinməkdə olan sözləri bir-bir oxunaqlı edirdi. Ən dəhşətlisi Moskvada, konfransda olanda alıb gətirdiyi və dolabın alt rəfinə yığdığı kitabların səhifələrini siçanların yeməsi olmuşdu. Hirsindən az qalmışdı hönkür-hönkür ağlasın. Moskvaya gedən dostuna pul verib o kitabları bir də gətizdirmişdi. Səbirsizliklə həyət evinin plana düşüb sökülməyini, şirkətdən alacağı pulla siçan olmayan bina evinə köçməyini gözləyirdi.

Leypsiq Universitetinin filologiyasını bitirib Bakıda universitetlərdən birində alman dilindən dərs deyən Elşənin atası Nizamla BDU-da bir qrupda oxumuşdu. Elşən tələbə olanda, yay tətilində, Bakıda atası onları tanış edib oğluna demişdi ki, filologiya ilə bağlı sualların olsa, rahatca ona müraciət edə bilərsən. Tanışlıqdan sonra Elşən evdə atasına demişdi: ”İnandırım səni, bu adam Almaniyada yaşasaydı, onların məşhur filoloq alimləri var, Marsel Rayx-Ranitski, onun kimi dünyada tanınardı”. - ”Elə bilirsən Marsellər tək Almaniyada olur? Nizam ayda beş yüz yox, o alim kimi tutaq ki, beş min dollar maaş alsaydı, uşaq hazırlaşdırmaq əvəzinə, gedib tez-tez xaricdə konfranslarda çıxış edərdi”. Atanın sifətində yaranan acı təbəssümə baxmayaraq, oğul başa düşmüşdü ki, diplom alıb Bakıya qayıdandan sonra ayda beş yüz manat maaş alsa da, onunku müəllimlikdir, elmdir. Ümidliydi ki, gələcəkdə ailəsini dolandırmaq, xaricdə konfranslarda çıxış etməkçün fondlardan qrant tapacaq.

Tələbə olanda Elşən Nizam müəllimin qaldığı evdə olmuşdu, az qala tavana çatan şkafın içindəki kitablara heyrətlə baxa-baxa demişdi ki, bunların hamısını oxumuş olarsız. ”Hamısını yox, doxsan faizini oxumuşam”. - ”Burda nə qədər kitab olar?” - ”Hardasa səkkiz min kitab, beş-altı min də yerli, bir də Moskvadan abunəylə gələn jurnallar. Hələ nə qədərini siçan yedi”. Axşam yerinə girəndə Elşən səkkiz minin üstünə beş min gəlmişdi. ”Eləyir on üç min kitab-jurnal, doxsan faizini oxuyubsa. Xoşbəxt adamdı. Kaş gələn dəfə mən Bakıya gələnə qədər qalan on faizini də oxumuş olaydı.” Oxunulmayan kitabları Nizam müəllimin beyninə daxil olan qatarın son vaqonları kimi təsəvvürünə gətirmişdi, planlar qurmuşdu: Marsel Rayx-Ranitskiylə tanış olacaq, Nizam müəllimin yazdığı elmi məqalələri almancaya tərcümə edib ona verəcək və alman aliminin oxuduqları necə xoşuna gələcəksə, onun Leypsiq universitetində bir-iki il dərs deməsinə kömək edəcək. Nizam müəllim ortabab bildiyi alman dilini təkmilləşdirəcək, tez-tez gedib alman tələbələrə Füzuli, Nizami poeziyası haqqında mühazirələr oxuyub orda məşhur alim olacaq: həm Azərbaycan ədəbiyyatını tanıdacaq, həm də maddi vəziyyəti xeyli yaxşılaşacaq, nəhayət, repetitorluqdan canı qurtaracaq və nə vaxtsa sökülləcək evinə görə kompensasiyanı gözləmədən özünə təzə ev alacaq.

...Artıq Bakıda iki həmkar kimi çayxanada oturub, saatlarla şair və yazıçıları, ədəbi cərəyanları, Elşənin yazmağa başladığı dissertasiya işini həvəslə müzakirə edirdilər. Elşənə elə gəlirdi ki, hər dəfə çantasında kitablarla görüşə gələn Nizam müəllim Leypsiq Universitetinin Bakıda doktorantura üzrə filialıdır, onunla söhbət isə bu filialda mühazirələrə qulaq asmaq kimi bir şeydir.

Semestr boyu qayıbları yazmamaqla, kəsirləri silməklə tələbələrdən pul alan müəllimlərdən söhbət düşəndə, Nizam müəllimin fəxr hissi coşurdu: ”Bizim tələbələrin yanında üzümüz ağdı, alnımız da açıq. Özüm görmüşəm, elələrinin pul aldıqları tələbənin qabağında dilləri necə qısa olur”.

Universiteti bitirmiş tələbələrin rüşvətxor müəllimləri, ən dəhşətlisi, o dünyadakıları adlarıyla feysbuk statuslarında biabır eləməsini görəndə Elşənin əti ürpəşirdi. ”Vay-vay, adamın lap goruna söyürlər ki”. Bəzənsə qınamaq bir yana, ürəyində elələrinə haqq qazandırırdı: ”Yazıqlar neyləsin? Dörd-beş yüz manatla ailə saxlamaq olar? Qaldı ki, uşaq hazırlaşdırmağa, işdən sonra yorulurlar, gücləri çatmır repetitorluğa”. Hətta ürəyinin dərinliyində ”onsuz da oxumayan” imkanlı tələbələrin qayıblarının çox olmasını istəyirdi ki, arada pulu dekana çatdıran iki yüz manat maaş alan müavinin də cibinə bir şey getsin.

Keçid balı almaq üçün tələbələrdən iki-üçü, bir dəfə də qış imtahanlarını tapşırtdırdığı qohum oğlanın əmisi Elşənə ”hörmət” təklif eləmişdi. Hamısına ”yox” demişdi. Tələbənin əmisi iki dəfə zəng eləmişdi, Elşən cürbəcür uydurmalarla (”Xəstəyəm”, ”Məqalə yazıram, bərk məşğulam”) gəl görüşəklərdən imtina eləsə də, qohum əl çəkməmişdi: ”Ay kişi, gəl onda heç olmasa, sənə bir restoran qonaqlığı verim”. Ona da razı olmamışdı və gizlincə öz təmizliyi ilə fəxr eləmişdi Elşən. Onun pul götürməməyinə evdə adi bir şey kimi baxırdılar. Bibisinin əri isə hər görəndə onu danlayırdı: ”Demirəm kasıbdan pul götür. Amma kimin ki, cibini pul deşir, üstəlik, özü verir, əlesindən fikirləşmədən götür. Bu, sənin halal haqqındır. Bax, gələn dəfə də biləm ki, varlı tələbələrdən pul götürmürsən, özündən küs, başa düşdün məni?” Başa düşürdü, amma yenə öz bildiyini edirdi Elşən və məsələyə fəlsəfi yanaşırdı: ”Biri gözlüyünün mənfilərini artıra-artıra halal puluyla qızına cehiz yığıb ərə verir, o biri də məni, subay birisini qınayır ki, niyə varlı tələbələrdən rüşvət götürmürsən”.

Universitetə işə düzələndən dörd il sonra Elşənə dekan müavini vəzifəsi təklif olunanda, cavab vermək üçün rəhbərlikdən üç gün vaxt istədi. Elə həmin gün məsələni açıb atasına dedi. ”Vallah, mənim də, elə sənin də bildiyin odu ki, dekan müavinləri həm də pul yığmaq işlərinə baxır. Sən o yolun yolçusu deyilsən, amma yenə bax da,” - atası qeyri-müəyyən məsləhət verdi. ”Bəlkə, Nizam müəllimlə məsləhətləşim?” Atası güldü: ”Adam tapdın da. Ömründə rüşvət götürməyən adam sənə nə deyəsidi ki?” - ”Hər halda görüşüm, bəlkə bilmədiyimiz, ya ağlımıza gəlməyən hansısa məqamı deyər,” - Elşən dedi.

Kafedə Nizam müəllimlə görüşdü, hal-əhvaldan, onu professor olması münasibətiylə təbrik edəndən sonra Elşən əsas məsələni açıb dedi və ondan məsləhət istədi.

- Elşən, açıq danışacam sənnən. Birincisi, onu bil ki, dekan müavini kimi bütün qapılar üzünə açıq olacaq. İndi yazdığın namizədlik, gələcəkdə doktorluq işinin müdafiəsi vaxtı zəhlətökən bürokratik maneələri aşanda, o vəzifə işinə yarıyacaq. Bir var, müdafiəyə qədər rastlaşacağın adamlara özünü universitetin adi müəllimi kimi təqdim edəsən, bir də var, səni dekan müavini kimi tanıyalar, yəni bunlar fərqli-fərqli şeylərdi. İkincisi, maddi vəziyyətini düzəldə bilərsən. Qabaqda evlənməyin var, ailə-uşaq qayğıları olacaq, özün görəcəksən o şeyləri. Amma təbii ki, belə məsələlərdə həddi də gərək aşmayasan. Qısası, məncə, razı olsan uduzmassan.

Sifətində ”Bu nə danışır?” yazılmış Elşən sonda dedi ki, fikirləşərəm, yolboyu öz-özüylə danışa-danışa dilxor evə qayıtdı. ”Deyir, maddi vəziyyətini yaxşılaşdıra bilərsən. Dalınca da deyir, amma həddi aşma ha, yəni, tələbədən pul umanda, sıxma-boğmaya salma ki, o da səni polisə verib tutdurmasın. Yəni, yüksək bal üçün tələbədən yüz yox, əlli manat istə”. Bir anın içində dissertasiya işinin üçüncü fəslini yazmaq həvəsi öldü və ona elə gəldi ki, vaxtında tənbəllik eləməyib Marsel Rayx-Ranitskiylə tanış olsaydı, sonra Nizamı da ona calasaydı, indi ikisi də orda dərs deyib ayda iki-üç min avro maaş alardılar, bugünkü dilxor söhbət də olmazdı. Evdə isə atasına yalandan dedi ki, o da sənin kimi deyir, o vəzifədə belə-belə işlər var, düşün, özün seçim elə. İstəmədi atası düzünü eşidib çaşsın, desin ki, zarafat edirsən.

Həmin görüşdən sonra Elşən heç cürə başa düşəmmədi, necə olur, otuz ildir rüşvətdən uzaq, tələbədən dörd yüz manat istədiyinə görə, prorektoru asıb-kəsən müəllim ona pullu vəzifəyə razı olmağı məsləhət görür, demir, razı olma, gələcəkdə alman dilindən tərcümələr eləməklə ailəni saxla. (Yeri gəlmişkən, Elşən dekan müavini olmağa razılıq vermədi.) Cavan müəllimi dəhşət bürüdü, ona elə gəldi, bu ölkədə təmiz Nizamlar ömrü boyu halal pul qazanmaqlarıyla fəxr etsələr də, buna görə məclislərdə dost-qohumun tərifindən ləzzət alsalar da, günlərin bir günü o cür məsləhət verməklə bibisinin əri kimilərin sevimli ”Bacarana can qurban” iyrənc el sözünün məntiqinə təslim olurlar. Sonra fikirləşdi, bəlkə Nizam müəllimə təcili çoxlu pul lazımıymış, - tutaq ki, arvadının, ya kiçik qızının müalicəsi üçün - tapa bilmirmiş və ömrü boyu düzgün həyat sürdüyünə görə həmin günlər özünə hədsiz nifrət edirmiş, istəmirmiş hələ cavan olan Elşən də onun kimi əziyyətli ömür sürsün. ”Ən azından, atam kimi deyə bilərdi ki, dekan müavini pul işlərinə baxır, ona görə fikirləş, seçimi özün elə. Ancaq belə götürəndə, atam da öz məsləhətində bir növ əl yeri qoymuşdu, qəti deməmişdi ki, razı olma, o işdə haram pul var”. Lap axırda yadına düşdü ki, arada özü də az maaşa görə tələbədən rüşvət götürən müəllimlərə haqq qazandırır. ”İlahi, doğrudanmı, bu peşmançılıq hissi Nizam, atam kimi rüşvətdən uzaq adamlara illər sonra əzab verməyə başlayır və nə vaxtsa mən də onların gününə düşə bilərəm???”